UOT 371

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ORCID: https://orcid.org/0000-0002-1151-4440*

# DƏRİN BİLİYƏ VƏ QABİLİYYƏTƏ MALİK MƏKTƏBLİLƏRİN PEŞƏ SEÇMƏ İŞİNİN YOLLARI

***Асмет Идрис гызы Исмаилханова***
*доцент кафедры Общей педагогики,*
*Азербайджанского Государственного Педагогического Университета*
*доктор философии по педагогике*

# ПУТИ ВЫБОРА ПРОФЕССИИ ШКОЛЬНИКАМИ С ГЛУБОКИМИ ЗНАНИЯМИ И СПОСОБНОСТЯМИ

***Asmet Idris Ismayilkhanova***
*associate professor of the department of General pedagogy of*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# METHODS OF CAREER CHOICE BY STUDENTS WITH PROFOUND KNOWLEDGE AND ABILITIES

**Xülasə.** Müəllif məqaləsində haqlı olaraq qeyd edir ki, xüsusi bacarığı, istedadı olan şagirdlərin müxtəlif göstəricilərinə əsasən müəyyən edilməsi və seçilməsi mühüm əhəmiyyət kəsb edir. Müəllifin fikrincə bu cür şagirdlərin müəyyən edilərək seçilməsində müxtəlif növ diaqnostik metodlardan, məsələn, məntiqi, analitik, intellektual, riyazi və s. testlərdən istifadə olunması çox mühüm əhəmiyyətə malikdir. Bu cür testlərlə yanaşı uşaqlarda mövcud olan digər bacarıq və qabiliyyətlərin aşkara çıxarılması üçün işarəli-simvollu, pedaqoji, musiqi, təsviri incəsənət və s. kimi qabiliyyət testlərindən də istifadə etmək vacibdir. Çünki bu işlərin səmərəli təşkil edilməsi şagirdlərdə istedadın inkişafına təkan verir və düzgün peşə, ixtisas seçməsinin reallaşmasına gətirib çıxarır.

***Açar sözlər:*** *istedad, fəaliyyət, tipologiya, komponent, diferensiallaşma, kinestetik, məntiq, prestij, strategiya, verbal, diaqnostik, kommunikativ*

**Резюме.** Автор справедливо отмечает важность выявления и отбора учащихся с особыми способностями и талантами по различным показателям.

По мнению автора, при выявлении и отборе таких учеников очень важно использовать различные виды диагностических методов, а именно: логические, аналитические, интеллектуальные, математические и др. тесты. Помимо таких тестов, для выявления других умений и способностей у детей важно использовать знаково-символьные, педагогические, музыкальные, изобразительные и т. д. тесты. Ведь эффективная организация этих работ способствует развитию талантов у учащихся и способствует правильному выбору ими профессии и специальности в будущем.

***Ключевые слова:*** *талант, деятельность, типология, компонент, дифференциация, кинестетический, логика, престиж, стратегия, вербальный, диагностический, коммуникативный.*

**Summary.** The author rightly points out the importance of identifying and selecting students with special abilities and talents based on various indicators.

According to the author, it is very important that different types of diagnostic methods (logical, analytical, intellectual, mathematical, etc. tests) be used in the process of identification and selection of such students.

In addition to tests, it is important to use sign-symbolic, pedagogical, musical, visual arts, etc. tests to identify other skills and abilities in children. After all, the effective organisation of these works contributes to the development of talents in students and helps them to make the right choice of profession and vocation in the future.

***Keywords:*** *talent, activity, typology, component, differentiation, kinaesthetic, logic, prestige, strategy, verbal, diagnostic, communicative.*

Azərbaycan Respublikasında cəmiyyətimizin gələcəyi olan yeniyetmələrin həyata hazırlanması işinə dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Odur ki, gələcəyinə böyük ümidlərlə baxdığımız yeniyetmə və gənclərə, xüsusən də xüsusi istedadı olan yeniyetmələrə yeni təfəkkür baxımından xüsusi yanaşma tələb edilməkdədir. Elə bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər) təsdiq edilməsi haqqında" 17 aprel 2006-cı il tarixli 1414 saylı sərəncam imzalamış və onunla əlaqəli Təhsil Nazirliyinin 3 iyul 2006-cı il tarixli 536 saylı əmri ilə təsdiq olunan "Fəaliyyət Planı" da belə bir aktual problemə yönəldilmişdir. Bu cür dövlət əhəmiyyətli vəzifənin həyata keçirilməsinə yönəldilən "Fəaliyyət Planı"nın və "Dövlət Proqramı"nın reallaşması nəinki təhsil işçilərinin və təhsil orqanlarının, eyni zamanda həm ictimaiyyətin, həm də bununla əlaqəli strukturların fəaliyyətinin istiqamətləndirilməsi üçün çox böyük əhəmiyyət kəsb edir.

Qarşıya belə suallar çıxır. Bəs istedadlı gənclər kimlərdir, bu gənclər öz həmyaşıdlarından hansı məziyyətlərinə görə fərqlənirlər? Ümumiyyətlə, xüsusi qabiliyyəti, istedadı müəyyənləşdirən meyarlar hansılardır? Bu suallara bir çox psixoloqlar tərəfindən müxtəlif məzmunda cavablar verilmişdir. Lakin bu psixoloqları birləşdirən bir ideya özünü daha inandırıcı göstərir ki, istedadlı yeniyetmə və gənclər malik olduqları bacarıq və qabiliyyətlərinə uyğun olan əməli fəaliyyətləri ilə daha çox ön planda olan və yüksək göstəriciləri ilə digərlərindən fərqlənən uşaqlardır. Belə uşaqların qabiliyyətini vaxtında aşkara çıxarmaq, onlarda olan xüsusi keyfiyyətləri qiymətləndirərək inkişaf etdirmək vacibdir. Vətənin inkişafı, tərəqqisi naminə istedadlı uşaqları istiqamətləndirmək ümumtəhsil müəssisələrinin, pedaqoji kadrların, ictimaiyyətin qarşısında dayanan ən aktual problemdir. Tanınmış professor Ə. Əlizadənin təbirincə desək, istedad, qabiliyyət şəxsi məsələ yox, xalqın milli sərvətidir. Bu cür istedadı qorumaq və xalqa təqdim etmək nəinki valideynin, tərbiyəçinin, eyni zamanda müəllimlərin ən mühüm missiyası olmalıdır (1, s.22).

İstedadlı şagirdlərin tipologiyası və onları müəyyənləşdirən meyarlar psixoloji ədəbiyyatlarda geniş işıqlandırılmışdır. Odur ki, biz istedadlı yeniyetmə və gənclərlə həyata keçirilməsi vacib olan işlərin sistemini müəyyənləşdirməyi lazım bildik.

Apardığımız təcrübələrin nəticələrindən aydın olur ki, istedadların aşkara çıxarılıb inkişaf etdirilməsində, eyni zamanda bu cür uşaqlarla fərdi işlərin həyata keçirilməsində ümumtəhsil müəssisələrində aparılan işlər günün tələblərinə cavab vermir. Burada aparılan işlər yalnız fənn olimpiadalarının keçirilməsi və uşaqların bu olimpiadalara cəlb edilməsindən ibarətdir. Buradan aydın olur ki, bu cür ögey münasibət istedadlı şagirdlərin üzə çıxarılması və onlarla işləməyin pedaqoji əsaslarını əks etdirmir. Lakin qeyd edək ki, son zamanlar ümumtəhsil müəssisələrində xüsusi bacarıq və qabiliyyəti ilə digərlərindən fərqlənən uşaqların çoxunun xüsusi məktəblərə, o cümlədən, gimnaziyalara, liseylərə transfer edilməsi işləri çoxalmışdır. Bu cür hadisələrin bir neçə səbəbi var, belə ki, müasirliyi ilə seçilən gimnaziyaların, liseylərin özünün malik olduğu maddi-texniki bazası vardır. Eyni zamanda bu müəssisələr yüksək peşə bacarığına, biliyə, hazırlığa malik olan pedaqoji kadrları, təlim prosesində ixtisaslaşma və diferensiallaşmaya çox yer vermələri və bir çox üstün cəhətləri ilə seçilir. Həmçinin bilik və bacarıqlara daha da diqqət yetirilməsi uşaqların malik olduğu istedadları aşkara çıxararaq inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə zəmin yaradır və adi məktəblərlə müqayisədə alınan nəticələr daha fərqli olur. Bunun ən mühüm səbəbi kimi belə məktəblərdə çalışan müəllimlərin ümumtəhsil müəssisələrinə nisbətən daha az uşaqlarla qarşılıqlı fəaliyyətdə olması göstərilir. Eyni zamanda bu tip məktəblərdə təlim prosesi-

nin məzmunu, istifadə etdikləri metodlar, vaxt və vaxta müvafiq sürəti uşaqların xüsusiyyətlərinə uyğunlaşdırılır ki, bu da təlim prosesində onların inkişaf dinamikasını, fəaliyyət istiqamətini mütəmadi izləməyə imkan verir. Burada vaxtdan qənaətlə və səmərəli istifadə etmək daima diqqət mərkəzində saxlanılır. Bütün bu səbəblər şagirdlərin daha səmərəli və məhsuldar işləmələrinə zəmin yaradır.

Onu da qeyd edək ki, respublikamızda böyük nailiyyətlər qazanan türk liseylərinin uğurlar qazanmasının əsas səbəbi pedaqoji kadrlar kontingentinin düzgün seçilməsi və eyni zamanda təlim prosesində müasir texnologiyadan, interaktiv təlim metodlarından səmərəli şəkildə istifadə edilməsidir. Xüsusi bacarığı, istedadı olan şagirdlərin müxtəlif göstəricilərinə əsasən müəyyən edilməsi və seçilməsi mühüm əhəmiyyət kəsb edən məsələdir. Ancaq bu hələ prosesin başlanğıcıdır. Bu cür şagirdlərin müəyyən edilərək seçilməsində müxtəlif növ diaqnostik metodlardan, məsələn, məntiqi, analitik, intellektual, riyazi və s. testlərdən istifadə olunması çox mühüm əhəmiyyətə malikdir. Bu cür testlərlə yanaşı uşaqlarda mövcud olan digər bacarıq və qabiliyyətlərin aşkara çıxarılması üçün işarəli-simvollu, pedaqoji, musiqi, təsviri incəsənət və s. kimi qabiliyyət testlərindən də istifadə etmək mühüm əhəmiyyətə malikdir. Burada digər əsas mərhələ istedadlı uşaqlarla qabiliyyətin və istedadın inkişaf etdirilməsi ilə əlaqəli onlarla müəyyən işlərin aparılmasıdır. Bu mərhələ həm məsul, həm də vacib mərhələdir. Çünki bu işlərin səmərəli təşkil edilməsi şagirdlərdə istedadın inkişafına təkan verir və düzgün peşə, ixtisas seçməsinin reallaşmasına gətirib çıxarır.

Şərqin ən böyük mədəniyyət abidəsi olan "Kəlilə və Dimnə" əsərində qeyd edilir ki: "İstedad, əql və kamal iki növdür: biri fitri, yəni, anadangəlmə, digəri əməli, yəni təcrübə vasitəsilə əldə edilən. İnsanlarda olan fitri istedad taxtadakı yanma qabiliyyətinə bənzər. Taxtaya od dəyməmiş yana bilmədiyi kimi, fitri istedad, əql və kamal da təcrübə və vərdiş olmadan özünü göstərə bilmir... təcrübə insanda əql və kamal oyadır" (1, s. 54).

Şagirdlər nə qədər istedadları, bacarıqları və qabiliyyətləri ilə digər yaşıdlarından fərqlənsələr də onların yenə də böyüklərin köməyinə ehtiyacları olur. Hətta xalq arasında belə bir fikir formalaşmışdır ki, sən istedadı olanlara kömək et, istedadsızlar özlərinə onsuz da bir yol tapacaqlar. Bu fikirdə müəyyən həqiqətlər vardır. Bəzi istedadlı insanlar onlara göstərilən laqeyd münasibətdən istənilən maneənin qarşısında aciz qalırlar. İstedadsızlar üçün maneəsiz keçilən yol istedadlılar üçün keçilməz səddə çevrilir. İstedadsızlar sürətlə qabağa gedir, istedadlılar isə köməksiz vəziyyətdə kimdənsə yardım almadan itib-batır və sonda "yox olurlar". Bu səbəbdən də əsil istedada, yaşıl işıq yandırılmalıdır. Onlara istedadlarını inkişaf etdirmək üçün şərait yaradılmalı, cəmiyyətin inkişafı naminə onların potensialından istifadə edilməlidir.

Ümumtəhsil müəssisələrində xüsusi istedada, qabiliyyət və bacarıqlara malik şagirdlərin gələcək peşə seçməyə istiqamətləndirilməsi işinin sistemini bu cür ümumiləşdirmək mümkündür:

1- Xüsusi istedadı olan şagirdlər istedadları, bacarıq və qabiliyyətləri üzrə yaradıcılıq fəaliyyətinə, gələcək peşə seçməyə hazırlanması üçün diferensial fəaliyyətə cəlb edilməlidir;

2- İstedadlı şagirdlərlə xüsusi məşğələlər təşkil edilməli, onları qazanılmış elmi nailiyyətlərlə, elmi-texniki tərəqqinin müasir nəticələri ilə mütəmadi məlumatlandırmaq lazımdır;

3- Yuxarı sinifdə təhsil alan xüsusi istedadlı şagirdləri bacarıq və qabiliyyətlərinə uyğun peşələr və ixtisaslarla, eyni zamanda əmək sahələri ilə tanış etmək məqsədi ilə müvafiq obyektlərə, müəssisələrə (universitetlərə, institutlara, müəssisələrə və s.) ekskursiyalara aparmaq mühüm vacibdir;

4- Xüsusi istedadlı, qabiliyyətli yeniyetmə və gəncləri yarışlara, müsabiqələrə, disputlara, olimpiadalara cəlb etmək lazımdır;

5- Yeniyetmə və gənclərin istedadlarını daha da inkişaf etdirmək məqsədi ilə onları elmi-kütləvi, tədris materialları, xüsusi ixtisas fənləri üzrə ədəbiyyatlarla, audio, video materialları ilə təmin etmək lazımdır;

6- Yuxarı sinifdə təhsil alan xüsusi istedadlı şagirdləri maraqları dairəsində olan fənnlər üzrə müxtəlif pilləli- istər rayon, istər şəhər, respublika, istərsə də dünya üzrə keçirilən olimpiadalara cəlb etmək mühüm şərtdir;

7- Xüsusi istedadlı yeniyetmə və gəncləri həvəsləndirmək məqsədilə müxtəlif təltiflərdən, təqaüdlərdən, mükafatlardan istifadə etmək lazımdır;

8- İstedadlı şagirdləri maraq və bacarıqları olan peşələrə, ixtisaslara istiqamətləndirmək üçün həmin peşələr, ixtisaslar haqqında onlara fərdi məsləhətlər vermək və müxtəlif məşğələlər və maarifləndirmə işləri aparmaq lazımdır;

9- İstedadlı şagirdlərin dərinləşdirilmiş siniflərdə təhsil alması, tərbiyə edilməsi və inkişaf etdirilməsi məqsədi ilə onların xüsusi məktəblərə göndərilməsini təşkil etmək vacibdir.

Bəzən istedadlı yeniyetmə və gənclərin hərəkətləri yaşlı nəsil tərəfindən birmənalı qarşılanmır. Belə ki, onlardakı qeyri-adi hərəkətlər, xüsusiyyətlər-düşüncə tərzi, danışıqları böyüklərə "qeyri-normal" təsir bağışlayır. Bu səbəbdən bu cür uşaqlara qarşı düzgün olmayan münasibət bəslənir ki, bundan da təkcə bu uşaqlar ziyan çəkir. Ögey münasibətin zərbəsi tək yeniyetmə və gənclərə deyil, cəmiyyətin inkişafına da təsir göstərir. Yəni həm yeniyetmələr, həm də cəmiyyət itirən tərəf olur. Bu cür istedadlar hər vaxt yaranmır. Bu istedadların qədrini bilmək, onları qorumaq hər bir vətəndaşın, məktəbin, müəllimlərin, valideynlərin, ümumiyyətlə, bütün ictimaiyyətin vətəndaşlıq borcu olmalıdır.

İstedadlı yeniyetmə və gənclərin peşəyə istiqamətləndirilməsi prosesində məktəblə ailənin birgə fəaliyyətinin bir-biri ilə əlaqələndirilməsi vacibdir. Məktəb də, ailə də şagirdin istedadının tipologiyasını, xüsusiyyətini nəzərə alaraq onların qabiliyyət və bacarığını dəstəkləməlidir. Lakin bir çox hallarda bunun əksi baş verir. Belə ki, istedadlı yeniyetmə və gənclər gələcək həyat yollarının müəyyən edilməsində, maraq və qabiliyyətlərinə uyğun peşə seçməkdə çətinliklər çəkirlər. Bu zaman valideynlər uşaqların deyil, öz maraqlarını düşünərək onların gələcək həyat yollarını müəyyənləşdirməyə can atırlar. Nəticə isə uğursuzluqla bitir. Respublikanın tanınmış psixoloqu Ə. Əlizadə bu haqda öz fikirlərini çox açıq şəkildə ifadə edərək yazır ki, maddi imkanlarından asılı olmadan bir çox ailələr övladlarının təhsilinə peşə problemi kimi baxırlar, qabiliyyət problemi kimi yox. Bu problemə psixoloji deyil, sosial ölçülərlə yanaşmağa çalışırlar. Müasir dövrdə ən çox maddi güzərana üstünlük verərək nüfuzlu peşələr seçməyin tərəfdarı olurlar ki, bu da çox zaman uğursuz nəticələrə gətirib çıxarır.

Valideynlər bəzən uşaqlarının istedadını, qabiliyyətini və maraqlarını görsələr də onların bu istəklərinin, arzularının ziddinə hərəkət edərək öz istək və arzularını ön plana çəkirlər. Uşaqları arzuladıqları sahədən uzaqlaşdıraraq ümidlərini, arzularını yarı yolda buraxırlar və nəticədə uşaqların "xəyal dünyası"nı uçurub dağıdırlar. Odur ki, valideynin arzularının nə qədər uşaqların gələcəkdə maddi vəziyyətinin yaxşı olması olsa da, əsas məsələ burada uşağın özünün nəyi istəməsi olmasıdır. Çünki, bu həyatı onlar yaşayacaq və verilən qərar da onların olmalıdır. Valideynlər yalnız istiqamət verməli və onların xəyallarını gerçəkləşdirmələri üçün kömək əlini uzatmalıdır. İstedadlı şagirdlərin malik olduqları istedadının daha da inkişaf etdirilməsi və peşə, sənət seçməsini onların arzu və istəklərinə uyğun həyata keçirilməsində pedaqoji-psixoloji aspektlər hökmən ön plana çəkilməlidir. Valideynlər, məktəb müəllimləri, məktəbdə fəaliyyət göstərən psixoloqlar uşaqların istedadının tipini müəyyən etməli və onların peşə seçmələrini də bu əsaslar üzərində qurmalıdırlar. Harvard Universitetinin aparıcı professoru H. Qardner insanlarda istedadlarını çoxşaxəli olduğunu qeyd etmişdir. XX əsrin 80-ci illərində professor H. Qardner bu qabiliyyətləri 7 qrupda sistemləşdirmişdir: 1-verbal; 2-məntiqi-riyazi; 3-bədən-kinestetik; 4-vizual-fəza; 5-şəxsiyyətlərarası; 6-şəxsiyyətdaxili; 7-müsiqi-ritmik qabiliyyətlər. Daha sonralar H. Qardner buraya təbiət və mənəvi qabiliyyətləri də daxil etmişdir. O deyirdi ki, bu qabiliyyətlər bir-birindən təcrid edilməmişdir. İstənilən bir şəxs ətrafdakılardan dəstək aldıqda, ruhlandırıldıqda və düzgün istiqamət verildikdə onların bu qabiliyyətləri lazımi şəkildə inkişaf edir. H. Qardnerin fikrincə bu yeddi qabiliyyət bütün insanlarda mövcuddur, lakin bəzi insanlarda bu qabiliyyətlər çox yüksək dərəcədə inkişaf etmişdir. Çox az insan tapılar ki, bu qabiliyyətlərin hamısının inkişafı onlarda aşağı səviyyədə olsun. Elə insanlar da vardır ki, onların bir-iki qabiliyyətləri zəif, çox qabiliyyətləri orta, az sayda qabiliyyətləri isə yaxşı inkişaf etmişdir. Bizim fikrimizcə əsas məqsəd şagirdlərdə istedad səviyyəsində özünü büruzə verən qabiliyyətləri vaxtında aşkar etmək, onu inkişaf etdirmək üçün münbit şərait yaratmaq olmalıdır. Tanınmış pedaqoq V.A. Suxomlinskinin təbirincə desək, hər bir insana sevdiyi işdə özünü tapmağa və öz bacarığını göstərməyə kömək etmək lazımdır. İstedadlı şagirdlə-

rin arzuladığı və seçdiyi peşələrdə özünü sınamağa çalışması olduqca mühüm məsələdir.

İndiki dövrdə həm istedad, həm də istedadlılara xüsusi qayğı lazımdır, əks təqdirdə bu istedadlar ya getdikcə zəifləyər, ya da yox olur gedər. (3, s. 348)

Azərbaycanın böyük oğlu, dahi Nizami Gəncəvi bu sahədə də öz sözünü obrazlı şəkildə demişdir:

Ağıllı adamlar yatan oldular,
Axırda saxsı qab satan oldular (4, s. 135).

Bəzən müəllimlər belə ifadələr işlədirlər ki, filan şagirdin çox yaxşı qabiliyyəti, istedadı var, amma tənbəldir, öz üzərində işləmir, oxumağa həvəsi yoxdur. Və yaxud bütün gün internetdə vaxt keçirir, oyun oynayır. Bu bir həqiqətdir. Müəllimin şagirdin qabiliyyətinə heyfi gəlir. Bəs bunun qarşısını necə almaq olar? Əlbəttə olar. Bunun qarşısını almaq üçün məktəbin bütün müəllimləri səfərbər olmalı, şagirdə düzgün istiqamət verməlidirlər. Axı onlar bu xalqın balalarıdır, istedad bütün xalqa məxsusdur. Bizim dahi şəxsiyyətlərimiz-şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız, memarlarımız, ümumiyyətlə bütün sənət adamlarımız bu xalqın içindən çıxmış və Azərbaycanın adını bütün dünyaya yaymışlar. Adlarını qızıl hərflərlə tarixə yazmışlar. Bunlardan N. Gəncəvini, N. Tusini, M. Füzulini, Ə. Xaqanini, Ü. Hacıbəyovu, S. Vurğunu, T. Salahovu, F. Əmirovu, Bülbülü və adlarını çəkmədiyimiz minlərlə tarixi şəxsiyyətlərimizi misal göstərmək olar. Odur ki, istedadını hiss etdiyimiz andan, hələ kiçik yaşlarından uşaqların qayğısına qalmalı, onların istedadını inkişaf etdirmək üçün məktəb də ailə ilə birlikdə səfərbər olmalıdır. Çünki bu iş ümumxalq işidir, bu işlərə məsuliyyətlə yanaşmaq hər kəsin borcudur.

"İstedadlı gənclərin fərdiləşdirilməsində ümumtəhsil məktəblərinin qarşısında duran ən ümdə və təxirəsalınmaz vəzifələrdən biri pedaqoji peşə istedadına malik şagirdlərin seçilməsi və onlarla işlərin aparılmasıdır" (5, s.165). Bizim fikrimizcə məktəblər istedadlı, hər cür şagirdlərlə işləmək bacarığına sahib olan gəncləri pedaqoji peşələrə-müəllimlik peşəsinə istiqamətləndirməlidir. Çünki, gəncliyi cəmiyyətin qurucusu kimi yetişdirmək birbaşa müəllimlərdən asılıdır. Müəllimi savadlı, işgüzar, qabiliyyətli, işinin ustası, vurğunu olan cəmiyyət həmişə güclü olmuşdur.

**Problemin aktuallığı.** Xüsusi qabiliyyətə malik gənclərin gələcəkdə istedadlarına uyğun peşə seçmələri cəmiyyətimizin qarşısında dayanan ən aktual problemdir və müasir cəmiyyətin bu tip gənclərə ehtiyacı vardır.

**Problemin elmi yeniliyi.** İstedadlı gənclərin fərdiləşdirilməsində ümumtəhsil məktəblərinin qarşısında duran ən ümdə və təxirəsalınmaz vəzifələrdən biri pedaqoji peşə istedadına malik şagirdlərin seçilməsi və onlarla işlərin aparılmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ümumtəhsil müəssisələrində oxuyan xüsusi qabiliyyətə malik olan şagirdlərin gələcəkdə öz qabiliyyətlərinə uyğun peşə seçmələrinin yollarını və vasitələrini onlara göstərmək məqsədi ilə pedaqoji kadrlar üçün bir vasitə rolunu oynaya bilər.

**Ədəbiyyat:**

1. Əlizadə Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər: esselər və etüdlər. / Əlizadə Ə. -Bakı: ADPU, -2005. -352 s.
2. Kəlilə və Dimnə.- Bakı: Azərnəşr, -1982. -317 s.
3. Suxomlinski V.A. Vətəndaşın doğulması. / V.A. Suxomlinski. - Bakı: Maarif, -1975. -362 s.
4. Nizami Gəncəvi. Xəmsə (ixtisarla). -Bakı: Turan, -2002. -312 s.
5. İlyasov M. Peşəyönümün əsasları. / M. İlyasov. -Bakı, Mütərcim,-2011. -324 s.

**E-mail:** a.ismayilxanova@gmail.com

**Rəyçilər:** *ped.elm.dok. prof.* **R.L. Hüseynzadə**
*ped.ü.fəls.dok. dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub**: 17.08.2023